

**Leyla ƏLİYEVA**

## *Müdrikdir mənim babam*

*Akademik, Əməkdar elm xadimi, Milli Aviasiya Akademiyasının rektoru Arif Paşayevə ithaf*

***Hamıdan müdrik insan mənim babam Arifdir,***
***Onun inandıqları nə əfsanə, nə mifdir.***

***Hər ana dəyər verir, hələ gəncdir ürəyi,***
***Xeyirxahlıq olubdur onun arzu-diləyi.***

***Bircə təbəssümüylə işıq saçır, nur yayır,***
***Səhvi olanları da danlamır, bağışlayır.***

***O, dinləyir hamını gözlərinə baxaraq,***
***Sevdalı ürəkləri oxuyur varaq-varaq.***

***O, ən yaxşı insandır, o, ən sadə adamdır,***
***Qızıl kimi bu dostum mənim Arif babamdır.***

***Sanki bal arısıdır, dostlarına bal paylar,***
***Onun geniş ürəyi, dünya sığan qəlbi var.***

***Şanlı ömür yolunu ləyaqətlə qət edər,***
***İncisə də birindən çayına dəvət edər.***

***Gözlərindən oxunur - o, hər şeyi duyandır,***
***Balın, sevginin rəngi ona yaxşı əyandır.***

***O, istəməz şəklini kitabımda verim mən,***
***Çünki şəkli silinmir heç kəsin gözlərindən.***

***Ən yaxşı dost yetirər anın, əsrin vədəsi,***
***Bu işıqlı dünyada hər kəs Allah bəndəsi.***

***Qoy bütün insanların bəxşişi sevgi olsun,***
***Zəngin olmaq istəsən insanı sev ki, olsun!***

*Tərcümə edəni:*
***Adil CƏMİL***

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 31 dekabr.- S. 19.**